

# Klassikləri anlamaq hünəri

■ Gülayə

Ünlü türk sənətçisinin "nə işlə məşğulsunuz, övladlarım?" sualına cavabları belə olmuşdu gənc yazarların:

- Bütləri yıxmaqla məşğuluq, ustadım!
- Yıxın, yıxın - söyləmişdi ustad, - bizsə vaxtilə yıxdığımız bütləri qaldırmaqla məşğuluq

Hər dəfə düşünürəm ki, əslində əsl sənətkar yaratdıqlarının içində böyüyür, əlçatmaz olur. Əsl sənətkar yaratdıqları ilə böyükdü, daha xalq sevgisi qazanmış böyük şəxsiyyətləri, necə deyərlər, bütləşmiş insanları aşağılamaqla yox.

Və düşünürəm ki, ədəbi haqlara, xalqın sonsuz sevgisini qazanmış tarixi şəxsiyyətlərə qarşı kin-küdurət püskürənlər heç olmasa özləri ilə təkbətək qalanda o böyük insanların ruhu qarşısında xəcələt hissi keçirməyə özlərində güc tapa bilirlərmi?

Yaxın günlərdə mətbuatda Mirzə Ələkbər Sabir, Bəxtiyar Vahabzadə kimi ustad sənətkarlarımızın haqqında səsləndirilən fikirlərin müəllifinin əvəzindən elə bil ki, ötən əsrin əvvəllərində görkəmli türk yazıçısı İsmayıl Hikmət üzr diləmişdir: "Gənclik və dəliqanlılıq sövqü ilə təbii olaraq işlədiyimiz qəbahətlərin üzrünü diləmək istərdik "

Bu, həm də çağdaş həyatımızda bizlərdən hər birimizin istəməli olduğu üzrdür. Elə bil ki, Türk dünyasının böyük şairi Mehmet Akif millətimizin qürur mənbəyi olan sənətkarlarımızın haqqına sayğısızlıqla yanaşan həpəndlərə xitabən yazıb bu sətirləri:

***Lafı bol, qarnıyoğun soyları***
***Təqlid etmə,***
***Sözü sağlam,***
***Özü sağlam ol, irqinə çək***

Təbii ki, Mirzə Ələkbər Sabir də, Əhməd Cavad da, Bəxtiyar Vahabzadə də digər böyük şəxsiyyətlərimizlə, görkəmli söz ustalarımızla yanaşı bizim çəkməli olduğumuz özü sağlam, sözü sağlam irqlərimizdəndir və millətimiz həmişə öz "hissiyyatını, düşüncəsini, milli kimliklərini o böyük insanların vasitəsilə təbliğ edibdir". (Tofiq Fikrət)

Biz az öncə qeyd etdiyimiz kimi M.Akif yetişməkdə olan gəncliyi özü sağlam, sözü sağlam olmağa, öz irqinə çəkməyə səsləyirdi. Lakin ustad M.Ə.Sabirin təbirilə desək "Öz qövmümüzün başına əngəl, kələf olan" həpəndlər də olmamış deyil. Belələri unudurlar ki, çox sayda görkəmli sənətkarlarımızla bir sırada M.Ə.Sabirin də, Əhməd Cavadın da, Bəxtiyar Vahabzadənin də heç bir kəsin müdafiəsinə və müdaxiləsinə ehtiyacları yoxdur. Bu sənətkarların hər biri istər ədəbi-mədəni, istərsə də ictimai mühitdə hansı önəmli yerə sahib olduqlarını, daşıdıqları missiyanı hər kəsdən yaxşı bilirdilər. Bu səbəbdəndi ki, Mirzə Ələkbər Sabir qəti əminliklə yazırdı:

***Bənzərəm bir qocaman dağa ki,***
***Dəryada durar***

Dəryada duran dağlarımızı boyu vətən boyda olmayanlar görməzlər ki! Öz ziyalısını milli sərvət kimi qəbul etməyənlərin sönük idrakıyla burunun ucundan uzağı görmək olmaz ki! Böyük sənətkarların peyğəmbər soyundan gəldiklərini fəhm etməyənlərin Mehmet Emin Yurdaqul dünyasına aşinalığı olmaz ki!

Bu fikir tamamilə doğrudur ki, klassiklər sözün həqiqi mənasında seçilmiş yazıçı və şairlər deməkdir; onların yaradıcılığını dərindən bilmədən haqlarında söz demək olmaz. Ən azından bilməlisən ki, sənin özünün fikir yükünün çəkisi, boyu haracandı. Xalq şairi Bəxtiyar Vahabzadə vaxtilə yüksək vətəndaşlıq duyğusuna malik olan insanların "bostanına"" qərəzli münasibət bəsləyənlərə üz tutub "axı sən özün söylə, nə etmisən bu vətən üçün" deyirdi.

Yaman olur çeşmənin nə çəkdiyini təşnə bilməyən yerdə. Yaman olur "dənizin nə çəkdiyini balıq bilməyən yerdə", yaman olur "balığın nə çəkdiyini xalıq bilməyən yerdə".



Ədəbi haqlara, klassiklərə qarşı nankor münasibət zamanın müxtəlif dövrlərində bu və ya digər şəkildə özünü ifadə edib. Nakam şairimiz Mikayıl Müşfiq belələrinə qarşı "yazalım, özümüzü öyməyəlim, Füzuliyə dəyməyəlim!" - deyə etirazını bildirirdi. Belələrinə qarşı Türkiyə ədəbi həyatından səsləniş gəlirdi ki, "şair, sən öldükcə vurulduqca yaşarsan!".

Madam ki, "biz vətənə Sabiri doğan qeyrət deyirik" (S.Rüstəmxanlı), madam ki, "Azərbaycan deyiləndə ayağa dur ki, Füzulinin ürəyinə toxuna bilər" (M.Araz) deyirik və böyük sənətkarlarımızın haqqını bu duyğularla yad edirik, gərək aramızda sapqın fikirlərə yer tapılmaya. Biz ziyalıya millətin sərvəti gözü ilə baxan Bəxtiyar Vahabzadədən öyrənə-öyrənə onun ədəbi haqqını necə dana bilərik? "Dünyanın bir çox şəhərlərində olmuşam və oradan Azərbaycana baxanda həmişə Anarı görmüşəm" (Toğrul Nərimanbəyli), Mirzə Cəlili, Hüseyn Cavidi, M.Ə.Sabiri, S.Vurğunu, R.Rzanı, M.Arazı görmüşəm deyə-deyə bu nadir şəxsiyyətlərin, görkəmli sənətkarların haqqına necə arxa çevirə bilərik?